AZƏRBAYCAN RESPUBLİKASININ

SƏHİYYƏ NAZİRİ

Ə M R

№ 20

Bakı şəhəri

"20" fevral 2009 il

**"Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nın qəbul edilməsi barədə"**

"Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nın icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2009-cu il tarixli 52 nömrəli Fərmanının icrası məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Prezidentinin 08 iyul 2008-ci il tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları" rəhbərlik və icra üçün qəbul edilsin.

2. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın:

2.1.Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2009-cu il tarixli 52 nömrəli Fərmanı ilə Səhiyyə Nazirliyinə həvalə olunmuş vibrasiya və səs-küy çirklənmələri normalarının aidiyyəti bəndləri üzərində nəzarətin təmin olunması məqsədilə müvafiq tədbirlərin görülməsi təşkil edilsin;

2.2. Vibrasiya və səs-küy çirklənmələri normaları üzərində həyata keçirilmiş laborator nəzarətinin və normaların pozulması hallarında tətbiq edilmiş inzibati tənbeh tədbirləri barədə məlumatın hesabata daxil edilməsi məqsədilə "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"na müvafiq olaraq "Rayonun, şəhərin vəziyyəti haqqında hesabat" 18-saylı formada dəyişikliklərin edilməsi təmin edilsin.

3. Əmrin icrasına nəzarət Nazir müavini Abbas Vəlibəyova həvalə edilsin.

**Oqtay Şirəliyev**

İŞLƏR İDARƏSİ
GERİ QAYTARILMALIDIR

AZƏRBAYCAN RESPUBLİKASI
SƏHİYYƏ NAZİRLİYİ
Daxil olma №-si 911
« 17 » 02 200 9-cı il

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

**"Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nın icrasının təmin edilməsi barədə**

"Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanının 2.1-ci bəndinin icrası məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki, nəqliyyat vasitələrinin və digər səs-küy mənbələrinin yaşayış və istirahət yerlərində, habelə insanların cəmləşdiyi digər yerlərdə ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və nüfuzedici səs-küyün yolverilən səviyyəsinə nəzarəti aşağıdakı icra hakimiyyəti orqanları həyata keçirirlər:

1.1. "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanının Cədvəl 1-in 1-9-cu bəndlərinə münasibətdə – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi;

1.2. həmin Cədvəlin 10-16-cı bəndlərinə münasibətdə – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

1.3. gecə vaxtı saat 23-dən səhər saat 6-dək həmin Cədvəlin 1-16-cı bəndlərinə münasibətdə – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi.

2. Bu Fərmanın 1.1-1.3-cü bəndlərinə müvafiq olaraq binalarda (mənzillərdə), idarə, müəssisə və obyektlərin daxilində hüquqi və ya fiziki şəxsin müraciəti əsasında yalnız müraciət edənin binasında (mənzilində), idarə, müəssisə və obyektinin daxilində qanunvericiliyin tələbləri nəzərə alınmaqla vibrasiya və nüfuzedici səs-küyün yolverilən səviyyəsi müəyyən edilir.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı
Azərbaycan vətəndaşlarının müraciətləri ilə iş şöbəsi
Sənədləri rəsmiləşdirmə və protokollaşdırma sektoru

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, " 13 " fevral 2009-cu il

№ 52